# Dərin zəkalı, polad məntiqli insanın vətənə bağlı ömrü

**Səfiyar Bəylər oğlu Musayev tarixçi idi. Ölkəmizin, qədim və müasir dünyanın tarixini mükəmməl bilirdi. O, dünyaya tarixin gözü ilə baxırdı. Bilirdi ki, dünyanın labirint yollarında zamanın səhvlərini, dövrün yanlışlığını tarix saf-çürük edib, həyat həqiqətlərini haqqın tərəzisinə qoyur.**



Səfiyar müəllim həm də qeyrətli türk oğlu kimi, bu "gəlimli-gedimli, bir ucu ölümlü" dünyada türkün zaman-zaman keçdiyi tarixi yolun hər döngə-dönəmini beş barmağı kimi tanıyır və çox yaxşı bilirdi ki, qədim və orta əsrlərdə zamanın mizan tərəzisi və bir də kəsərli qılıncı türkün əlində olub. Bəşərə öz mədəniyyətini, öz hikmətini, qüdrətini və hökmünü göstərib və yenə də göstərəcək. Dünya yenə də türkün ləyaqət və şərafət işığından nur alacaq.

Səfiyar Musayev türk tarixinin gözəl bilicisi idi. O bilirdi ki, türk dünyasının əbədi və əzəli yurdu olan və şərqdən-qərbə, şimaldan-cənuba doğru uzanan yolların kəsişdiyi bir diyar və təbii zənginliyi baxımından zaman-zaman dünyanı özünə cəlb edən bir məkan, bir torpaq varsa o da Azərbaycan torpağıdır. Bu torpaqdan qədim yunanlar keçmiş, romalılar iz salmış, Teymurilər qışlamışdır. Bu torpağın tükənməz sərvəti zaman-zaman yad əllərlə yad ölkələrə daşınmışdır.

Məşhur 91-lərdən biri olan görkəmli alim Səfiyar Musayev kimi insanlardan yazmaq, onun mənalı ömür yoluna işıq salmaq, indiki və gələcək nəsillərə çatdırmaq çox faydalıdır. Tarixçi alimin həyatı mübarizələrdə keçmiş, həmişə söz, fikir, məfkurə uğrunda döyüş meydanlarından qalib çıxmışdır.

Səfiyar Musayev 1935-ci il iyunun 17-də Göyçə mahalında - Basarkeçər rayonunun Nərimanlı kəndində dünyaya göz açmışdır. Atası Bəylər II Dünya müharibəsi iştirakçısı, rayonun tanınmış ziyalılarından idi. S.Musayev 1943-cü ildə Nərimanlı kənd orta məktəbinin birinci sinfinə daxil olmuş, biliklərə mükəmməl yiyələnmiş, orta məktəbi qızıl medalla bitirdikdən sonra qəlbinin hökmü ilə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. Təhsil aldığı müddətdə universitetin tələbə təşkilatlarında ictimaiyyətçi kimi tanınmışdır. 1958-ci ildə universiteti fərqlənmə diplomu ilə başa vurmuş, sonra doğma kəndinə qayıtmış, Basarkeçər rayonunun Çaxırlı kəndində tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır.

Yay aylarında Səfiyar əmisi Əvəz müəllim, yaxın dostu Məmməd müəllim, Qənbər müəllim və Qurban müəllimlə birlikdə Kəlbəcərə, Diladağa, Murovdağa, Göyçə gölünün nəğməli sahillərinə gəzintiyə çıxar, el aşıqlarının söylədikləri dastanlara həvəslə qulaq asardı.

Günlərin birində Səfiyar Musayevə xəbər gəldi ki, sabah tezdən rayon partiya komitəsinin birinci katibinin qəbulunda olmalısan. O, deyilən vaxtda birinci katibin qəbulunda oldu. Raykomun katibi ona bildirdi ki, maarif müdiri İsacan Minasyanın deməsinə görə siz çox istedadlı gəncsiniz, həm də tarixçisiniz. "Sovet Ermənistanı" qəzetinin zona müxbiri yeri boşdur, məsləhət görürəm ki, sizi o yerə təyin edək. Səfiyar Musayev birinci katibin göstərişi ilə "Sovet Ermənistanı" qəzetinin zona müxbiri kimi işə qəbul olundu.

S.Musayev mütəmadi olaraq Basarkeçər və digər rayonlardan sanballı yazılar hazırladı. Tədricən tənqidi yazılara da üstünlük verdi. "Sovet Ermənistanı" qəzetində dərc olunan qış mövsümünə hazırlıqla bağlı "Ögey münasibət" sərlövhəli tənqidi yazısı rayonda böyük rezonans doğurdu. Məqalədə Aqrar Birliyin sədri A.Karapetyan ciddi tənqid olunmuşdu. Bir neçə gündən sonra məqalə rayon partiya komitəsinin bürosunda müzakirə olundu.

- Səfiyar müəllim, cavan oğlansan, rəhbər vəzifəli şəxsləri tənqid atəşinə tutmaq düzgün deyil, qələminin kəsərini azalt!

Səfiyar Musayev şübhəsiz ki, çox pərişan oldu, ayağa qalxıb dedi:

- Mən tənqidə çox yol verməmişəm, qarşıma sipər çəkirsinizsə bu vəzifəni qoyub gedirəm. Bürodan çıxanda ərizəsini yazıb katibəyə təqdim etdi. 3 gündən sonra birdəfəlik Basarkeçəri tərk etdi.

Geniş elmi dünyagörüşü, fitri istedadı ilə fərqlənən Səfiyar Musayev çox keçmədən Bakı şəhərinə üz tutdu. 1965-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi, 1980-ci ildə isə tarix elmləri doktoru alimlik dərəcəsi aldı. 1981-ci ildə isə professor adına layiq görüldü.

Tarix elminin inkişafında və bu sahədə ixtisaslı kadrların yetişməsində böyük əmək sərf edən Səfiyar Musayev 1986-cı ildən ömrünün sonuna kimi Bakı Dövlət Universitetinin siyasi tarix kafedrasının müdiri vəzifəsində işləmişdir. Qayğıkeş, işgüzar, prinsipial və dərin bilikli alim universitetdə işlədiyi müddətdə professor-müəllim heyətinin və tələbələrin dərin hörmətini qazanmışdır. Səfiyar Musayev çox gərgin, səmərəli və məhsuldar işləyən görkəmli tədqiqatçı idi. Tarixin əsas elmi istiqamətlərindən hesab edilən siyasi tarix sahəsində geniş araşdırmalar aparmış, onu dəqiq fakt və sənədlə zənginləşdirmiş, yeni elmi məktəb yaratmasıdır. Tədqiqatçının ictimai-siyasi hərəkatları və mədəni problemləri elmi cəhətdən işıqlandıran monoqrafiyaları, məqalələri, müəllifi və redaktoru olduğu kitablar, dərsliklər, indi də aktuallığını saxlamaqdadır. O, 460-dan çox elmi əsərin, o cümlədən 6 monoqrafiya və 10 kitabın müəllifidir. Onun elmi araşdırmaları respublikamızın hüdudlarından kənarda da tanınmışdır. Bir sıra konfranslarda və simpoziumlarda Azərbaycan elmini ləyaqətlə, yüksək səviyyədə təbliğ etmişdir. Almaniya, Türkiyə, İran, Çin, Çexiya, Kipr və digər ölkələrdə siyasi tarixin tədrisində türkdilli xalqları düşündürən problemlərlə bağlı əhatəli məruzələrlə çıxış etmişdir. Səfiyar müəllimin rəhbərliyi altında 30-a qədər namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Görkəmli alim ömrünün 40 ilindən çoxunu BDU-da keçirmişdir. O, bu müddət ərzində universitetin ictimai-siyasi və elmi həyatında mühüm xidmətlər göstərmişdir. İstedadlı alimin rəhbərliyi ilə ilk dəfə BDU-da siyasi tarix kafedrası yaradılmış və səmərəli fəaliyyət göstərmişdir. Onun rəhbərliyi ilə 1991-ci ildə respublikamızda ilk dəfə olaraq ali məktəb tələbələri üçün fundamental xarakterli "Siyasi tarix" dərsliyi çap edilmişdir. 1998-ci ildə işıq üzü görən dərsliyin ikinci cildi respublikamızın təhsil sistemində siyasi fənlərin tədrisində yaranan boşluğun aradan qaldırılmasında mühüm hadisə olmuşdur. Görkəmli alim təkcə pedaqoji fəaliyyətlə kifayətlənməmiş, onun həyat və fəaliyyəti Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən ictimai-siyasi proseslərlə sıx bağlı idi.

Ötən əsrin sonlarında Azərbaycanın bir dövlət kimi tarix səhnəsindən silinmək təhlükəsi yarandığı dövrdə Səfiyar Musayev universitetin bir qrup müəllimi ilə birlikdə mübarizəyə qalxdı. O, 1992-ci il oktyabrın 16-da "Səs" qəzetində dərc etdirdiyi "Mən niyə Əliyevçiyəm" məqaləsində Heydər Əliyevin tarixi xidmətlərini qeyd etməklə belə bir nəticəyə gəlirdi ki, Azərbaycanı düşdüyü bu bəladan yalnız və yalnız Heydər Əliyev xilas edə bilər.

BDU-nun Humanitar fakültələr üzrə siyasi tarix kafedrasında "Heydər Əliyevin müdafiəsi mərkəzi" yaradıldı və Ulu Öndərin sədrliyi ilə Azərbaycanda yeni bir partiyanın təsis edilməsi ideyası ortaya çıxdı. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edildikdən sonra mərhum Səfiyar Musayevin rəhbərliyi ilə çalışdığı kafedrada 17 nəfərin iştirakı ilə YAP-ın ilk təşkilatı yaradıldı.

Səfiyar müəllim görkəmli ictimai-xadim idi. O, 1995-ci il noyabrın 12-də Goranboy-Naftalan seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilib. Milli Məclisdə İnsan Hüquqları daimi komissiyasının sədri kimi çalışıb. Daha sonra isə Müstəqil Dövlətlər Birliyi parlament assambleyasında sosial-siyasət və insan hüquqları daimi komissiyasının sədri təyin edilib. Səfiyar müəllim hər iki məsul vəzifənin öhdəsindən ləyaqətlə gəlirdi. O, 1995-ci il 12 noyabrında qəbul olunan müstəqil dövlətimizin ilk Konstitutsiyasını hazırlayan Komissiyanın üzvü olmuşdur.

Səfiyar Musayev 1999-cu il yanvarın 6-da ömrünün 64-cü baharında vəfat etmiş, birinci Fəxri xiyabanda dəfn olunmuşdur.

Görkəmli elm xadimi hər kəsə, o cümlədən rəhbərlik etdiyi kollektivin bütün üzvlərinə münasibətdə səmimi, nəzakətli və mehriban idi. Amansız ölüm macal versəydi, bu günlərdə xalqımız görkəmli alimin 90 yaşını qeyd edəcəkdi.

Ehtiyatda olan polis polkovniki oğlu İlqar Musayevlə söhbət edərkən dedi: - Atam Qərbi azərbaycanlıların ata-baba yurdlarını tərk etmələri xəbərini eşidəndə bir neçə gün özündə olmadı, ermənilərin xəyanətindən bərk sarsıldı, son sözü isə bu oldu ki, heç vaxt daşnaklar türk yurdunda at oynada bilməzlər...

Səfiyar müəllimin nəvələrindən biri onun adını daşıyır. O deyir ki, çox tezliklə yaşıdlarımla birlikdə Göyçə mahalına, qəribsəmiş yurd yerlərinə dönəcəyəm...

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

Respublika.- 2025.- 1 avqust (№ 158).- S.7.